**“Fövqəladə hallarda, fövqəladə *və ya hərbi* vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının 1.8-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Fövqəladə hallarda, fövqəladə *və ya hərbi* vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 iyun 2006-cı il
417

Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Fövqəladə hallarda, fövqəladə *və ya hərbi* vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının**

**S İ Y A H I S I**[2]

| Sıra-si | Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı | Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü |
|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Prezidenti | telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin bütün növləri |
| 2. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin bütün növləri (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, ~~Milli Təhlükəsizlik Nazirliyinin,~~ Müdafiə Nazirliyinin, *Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin,* Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin xüsusi telekommunikasiya şəbəkələri, qurğuları və vasitələri üzrə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla)[3] |
| 3. | Azərbaycan Respublikasının *Rəqəmsal İnkişaf və Nəqliyyat* Nazirliyi[4] | ümumistifadəli telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin bütün növləri (o cümlədən ümumistifadəli telekommunikasiya şəbəkələrinə qoşulmuş fiziki və hüquqi şəxslərin telekommunikasiya şəbəkələri, qurğuları və vasitələri), habelə teleradio yayımının texniki təminatı (ötürülməsi) ilə bağlı texniki yayım vasitələri |

| | | |
|---|---|---|
| 4. | *Fövqəladə hallarda və fövqəladə vəziyyət şəraitində* Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin komendantı, *hərbi vəziyyət şəraitində isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti*[5] | qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərinə uyğun fövqəladə *və ya hərbi* vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə ümumistifadəli telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin bütün növləri (o cümlədən ümumistifadəli telekommunikasiya şəbəkələrinə qoşulmuş fiziki və hüquqi şəxslərin telekommunikasiya şəbəkələri, qurğuları və vasitələri), habelə teleradio yayımının texniki təminatı (ötürülməsi) ilə bağlı texniki yayım vasitələri)[6] |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
2. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)
3. 18 dekabr 2017-ci il tarixli **1736** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2304**)
4. 18 oktyabr 2018-ci il tarixli **309** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2009**)
5. 31 may 2022-ci il tarixli **1703** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 18 oktyabr 2018-ci il tarixli **309** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2009**) Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235**) ilə adına və 1-ci hissəsinə "**fövqəladə**" sözündən sonra "**və ya hərbi**" sözləri əlavə edilmişdir.

[2] 18 oktyabr 2018-ci il tarixli **309** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2009**) Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nın adına "**fövqəladə**" sözündən sonra "**və ya hərbi**" sözləri əlavə edilmişdir.

[3] 18 dekabr 2017-ci il tarixli **1736** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2304**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının Siyahısı"nın 2-ci hissəsindən "**Milli Təhlükəsizlik Nazirliyinin,**" sözləri çıxarılmışdır və həmin hissəyə "**Müdafiə Nazirliyinin,**" sözlərindən sonra "**Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin,** " sözləri əlavə edilmişdir.

[4] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının Siyahısı"nın 3-cü hissəsinin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununda "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının Siyahısı"nın 3-cü hissəsinin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununa "**Rabitə**" sözündən əvvəl "**Nəqliyyat,**" sözü əlavə edilmişdir.

31 may 2022-ci il tarixli **1703** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 iyun 2022-ci il, 114**) ilə "Fövqəladə hallarda, fövqəladə və ya hərbi vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nın 3-cü hissəsinin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununda "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar**" sözləri "**Rəqəmsal İnkişaf və Nəqliyyat** " sözləri ilə əvəz edilmişdir.

[5] 18 oktyabr 2018-ci il tarixli **309** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2009**) Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti,**

**19 oktyabr 2018-ci il, 235**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nın 4-cü hissəsinin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununa "**Azərbaycan Respublikasının**" sözlərindən əvvəl "**Fövqəladə hallarda və fövqəladə vəziyyət şəraitində**" sözləri, "**komendantı**" sözündən sonra "**, hərbi vəziyyət şəraitində isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti**" sözləri əlavə edilmişdir.

[6] 18 oktyabr 2018-ci il tarixli **309** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2009** ) Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 oktyabr 2018-ci il, 235**) ilə "Fövqəladə hallarda, fövqəladə vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nın 4-cü hissəsinin "Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü" sütununa "**fövqəladə**" sözündən sonra "**və ya hərbi** " sözləri əlavə edilmişdir.